Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Türkiyənin qorxunc PUA-ları ordumuzun ixtiyarına verilir - Ermənistan müharibə təhlükəsini artırır

**Bu günlərdə qardaş Türkiyə Silahlı Qüvvələrinin arsenalına yeni silah daxil edilib. Müdafiə Texnologiyaları Mühəndislik və Ticarət şirkəti tərəfindən tamamilə yerli imkanlar daxilində istehsal olunmuş "Karqu" adlı kamikadze dronlar qısa müddət əvvəl ordunun xidmətinə verilib.**

Şirkətin baş direktoru Murad İkinci "Karqu"nun 3 ildir istehsal olunduğunu və terrorla mübarizədə effektiv formada istifadə edildiyini bildirib. Onun sözlərinə görə, fırlanan qanadlarla yanaşı, sabit qanadlı yeni kamikadze "Alpaqu" pilotsuz uçuş aparatlarının sınaqları davam edir və yaxın zamanda ordunun xidmətinə veriləcək.

Qeyd edək ki, "Karqu" kiçikölçülü, üzərində silah daşıya bilən drondur. Xüsusi özəlliyi ondan ibarətdir ki, assimmetrik əməliyyatlarda və döyüşlərdə risqli bölgələrə daxil ola bilir və əsgərlər daxil olmadan öncə bölgəyə girərək təhdidləri aradan qaldırır. Hər hansı idarəetmə mərkəzinə ehtiyac duymur. Ümumiyyətlə, Türkiyənin Suriyada həyata keçirdiyi hərbi əməliyyatlardan sonra bəlli oldu ki, Ankara dron sahəsində böyük uğurlara imza atıb. Həmin dronlar vasitəsilə hərbi əməliyyatlar insan itkisini əhəmiyyətli dərəcədə azaldır. Eyni zamanda düşmənin texnika və canlı qüvvəsinin neytrallaşdırılması baxımından da bu dronlar, yaxud pilotsuz uçuş aparatları böyük əhəmiyyət kəsb edir. Belə bir vaxtda işğalçı Ermənistan üçün də ən böyük qorxulardan biri sözügedən dronların Azərbaycan ordusunda peyda ola biləcəyidir. Erməni analitik Yervand Bozoyan bunu mümkün sayır və qeyd edir ki, Ankara böyük zərbə gücünə malik dronlarını Azərbaycan tərəfinə də ötürəcək. O bunu həm də Rusiya və Türkiyə arasında baş verən proseslərin nəticəsi kimi qiymətləndirir:"Türkiyə prezidenti Rəcəb Tayyip Ərdoğan Moskva üçün yetərli qədər uyğun fiqurdur. İstənilən digər hökumət müzakirələrə daha az açıq və daha çox qərbyönlü olacaq. Bu o deməkdir ki, Moskva Ərdoğanla daha elastik və çoxsəviyyəli siyasət aparmalıdır. Amma Rusiya-Türkiyə münasibətlərində ən zəif halqa Dağlıq Qarabağ münaqişəsidir. Putinlə görüşdə gözlədiyindən daha az şey əldə edən Ərdoğan Qarabağ kartını oynayacaq. Türklər özlərinin Cənubi Qafqazdan olan qardaşlarına ən geniş yardımı göstərəcəklər. Ərdoğanın Bakıya səfəri zamanı tərəflər arasında hərbi-texniki müqavilə imzalandı. Buna əsasən, Ankara Bakını Suriyada uğurla istifadə edilən ən müasir pilotsuz uçan aparatlarla təchiz etməyə hazırlaşır. Ekspertlərin sözlərinə görə, cəmi 2 günə Türkiyə PUA-ları Suriyada 100-dən çox fərqli hərbi texnikanı məhv etdi. İndi bu silahları Azərbaycan özü də əldə etməkdə maraqlıdır. Elə Ankara da Bakının istəyinə yox deməyəcək".

Həqiqətən də Türkiyənin Suriyada tətbiq etdiyi zərbə və kəşfiyyat dronları, dünyanın bir çox ölkələri kimi, Azərbaycanı da yaxından maraqlandırır. Burada söhbət ilk olaraq "Bayraktar TB2", "Akıncı", ANKA, ANKA-S, "Alpagu", barəsində yuxarıda bəhs edilən "Karqu", "Sərçə" zərbə və kəşfiyyat PUA-larından gedir. Həmin silahlar bir sıra xüsusiyyətlərinə görə seçilir. Məsələn, ANKA 24 saat havada uça bilir. Bu pilotsuz uçuş aparatı gecə və gündüz, istənilən hava şərtlərində nəzarət, sabit və ya hərəkətli hədəfi aşkarlama, müəyyənetmə, təqib məqsədli, real zamanlı görüntü kəşfiyyatı vəzifələrini yerinə yetirir. Digər pilotsuz uçuş aparatlarından fərqli olaraq, ANKA-S PUA-larının fəaliyyətinə "Türksat" peyklərinin əhatə dairəsinə daxil olan istənilən nöqtədən, hava şəraitindən asılı olmayaraq, asanlıqla nəzarət edilə bilər. Məsələn, bu günlərdə Suriya ərazisində fəaliyyət göstərən ANKA-S PUA-ları Ankaradan idarə edilə bilir. Tamamilə yerli və milli istehsal olan ASELSAN-ın "Sərçə" kvadrokopteri də döyüş əməliyyatlarında özünü doğruldub. Tam avtonom hərəkət edə bilən PUA gecə zamanı ərazini müşahidə etməyə imkan verir. 4 mühərrikdən hər hansı birinin sıradan çıxması uçuşu əngəlləyə bilmir.

Türkiyənin "Baykar Makina" şirkəti isə qardaş ölkə üçün ən müasir PUA-lar istehsal edir. "Baykar" tərəfindən hazırlanan və inkişaf etdirilən ilk "Bayraktar" PUA-sı 2007-ci ildə Türkiyə Silahlı Qüvvələrinin silahlanmasına daxil edilib. Bu aparat həm də ilk ixrac edilən Türkiyə PUA-sıdır. Şirkətin istehsal etdiyi məhsullar arasında daha üstün taktiki-texniki xüsusiyyətlərə malik "Akıncı" zərbə PUA-ları xüsusilə seçilir. "Akıncı" zərbə PUA-sı təyin edilən marşrut üzrə hava kəşfiyyatı aparmaq, əldə edilən məlumatları idarəetmə məntəqəsinə tədqim etmək, yerüstü, suüstü və hava hədəflərinə müstəqil və ya operatorun komandası ilə silahlanmasında mövcud olan sursatlarla aviazərbələr endirmək üçün nəzərdə tutulur. PUA-ların havada olduqda belə tapşırıqları və ya hədəflərinin dəyişdirilməsi, həmçinin onların ləğv edilməsi mümkündür.

Bu PUA-nın istehsalı Türkiyənin müdafiə sənayesində son illərdə reallaşdırdığı ən mühüm layihələrdən biri hesab edilir. "Akıncı" PUA-ları kifayət qədər geniş rayonlarda uzun müddət davam edən vəzifələri yerinə yetirmək üçün nəzərdə tutulan və populyarlığı getdikcə artan HALE (High Altitude Long Endurance - Böyük Yüksəklikdə Uzun Müddət) sinifinə aiddir. Buna səbəb kimi onların ölçüləri ilə bərabər həm fəaliyyət radiusunun, həm uçuş yüksəkliyinin, həm də daşıdığı faydalı yükün kütləsinin hardasa pilotlu hərbi təyyarələrin göstəricilərinə yaxınlaşması göstərilir. HALE sinfindən olan PUA-lar dünyanın yalnız 4 ölkəsi tərəfindən istehsal edilir. "Akıncı" MAM-L, MAM-C, "Cirit", L-UMTAS, UMTAS, BOZOK, MK-81, MK-82, MK-83, HGK, KGK, Teber-82, "Gökdoğan", "Bozdoğan", SOM kimi lazer və ya idarəolunan raket və bombalardan istifadə edə bilir.

Azərbaycanın bu dronların alışını həyata keçirməsi isə tamamilə mümkün sayılır. Ekspertlər hesab edir ki, əslində bu dronların alışı vacibdir. Məsələn, Azərbaycan ordusunun silahlanması üçün əldə edilən ROKETSAN şirkətinin SOM qanadlı raketlərinin yaşlanan qırıcı aviasiya əvəzinə yeni "Akıncı"ya inteqrasiyası daha məqsədəuyğundur. Bu proses PUA-ya 180 kilometrə qədər məsafədən, nəinki Ermənistan Hava Hücumundan Müdafiə qoşunlarının məhvetmə zonasına daxil olmadan, hətta ona yaxınlaşmadan 230 kiloqramlıq döyüş başlığı ilə hədəflərə nöqtə zərbələri endirməyə imkan verə bilər. Digər tərəfdən isə, Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində idarəolunan aviasiya bombalarının "Akıncı" ilə tətbiqi də mümkündür. Belə olan halda qırıcılar üçün təhlükəli hesab edilən vəzifələrin eyni silahlara malik PUA-larla, həm 24 saat ərzində havada fasiləsiz müşahidə aparmaqla, həm də tam təhlükəsiz məsafədən yerinə yetirilməsi ordumuz üçün hərbi əməliyyatlar teatrında ciddi üstünlük qazandırar. Hazırda bu sinif PUA-ların əvvəlki versiyaları Qətər və Ukrayna tərəfindən əldə edilib. Azərbaycan, eləcə də Pakistan, İndoneziya, Filippin, Oman və Malayziya isə bu məhsullarla yaxından maraqlanır. Ekspretlər hesab edir ki, Türkiyənin "Akıncı" PUA ailəsinin yalnız alınması deyil, həm də Azərbaycanda istehsal sahəsinin yaradılması mümkündür. Ən azı o baxımdan ki, Azərbaycanın bu sahədə təcrübəsi də var. İsraillə belə istehsal həyata keçirilir. Belə ki, "Pegasus 120" adlanan PUA İsrailin "Aeronautics" şirkəti ilə müştərək əsasda "Azad Systems" müəssisəsində istehsal olunur. Hərbi və mülki təyinatlı logistik yüklər daşıyan "Pegasus 120" 75 kiloqramadək yükləri 40 kilometrə qədər məsafəyə daşıya və tam yüklü vəziyyətdə havada 45 dəqiqəyədək qala bilir.

Bundan başqa, məlumdur ki, İsrailin "Israel Aerospace Industries LTD" şirkəti Azərbaycanda nümayəndəlik açıb. Xatırladaq ki, "Israel Aerospace Industries" Azərbaycanla fəal əməkdaşlıq edir. Xüsusilə Azərbaycan şirkətdən "Naqor" PUA və digər avadanlıq alıb. Şirkət aviatexnika, kosmik peyklər, rabitə və kəşfiyyat üçün alət və avadanlıqların istehsalı, dünyada aparıcı PUA tərtibatçısı və istehsalçısıdır. Onlardan bəzilərinin dünyada analoqu yoxdur. Bundan başqa, məlumdur ki, Azərbaycan Silahlı Qüvvələri öz cəbbəxanasını İsrailin "Elbit Systems" şirkətinin istehsal etdiyi "SkyStriker" idarə olunan uçuş aparatları ilə zənginləşdirib. Azərbaycan ordusunun ixtiyarında artıq "Israel Aerospace Industries" şirkətinin istehsalı olan "Harop" və "Aeronautics Defense Systems" şirkətinin istehsalı olan "Orbiter 1K" birdəfəlik kiçik zərbə PUA-ları da var. 2016-cı ilin aprelində dördgünlük müharibənin gedişində həmin PUA-lardan erməni mövqelərinə zərbələrin endirilməsində istifadə edilib. "Harop"dan fərqli olaraq, "SkyStriker" və ADS "Orbiter 1K", demək olar ki, səssizdirlər, belə ki, elektrik mühərrikləri ilə hərəkətə gətirilirlər.

Bütün bunlar o deməkdir ki, Türkiyə də Azərbaycanla PUA sahəsində sıx qarşılıqlı əməkdaşlıq edə bilər. Azərbaycanın belə silahlara ehtiyacı müharibə aparan ölkə kimi yüksəkdir. O baxımdan ki, zərbə PUA-larının tətbiqi Hərbi Hava Qüvvələrinin pilotlu vasitələri üzərinə düşən döyüş yükünün azaldılmasına imkan verir. Digər tərəfdən isə, bu PUA-lar qırıcılara qarşılıqlı əlaqədə paralel hava əməliyyatlarında iştirak edərək ordumuzun hava komponentinin zərbə gücünü artırmağa da imkan verə bilər. Hər halda, bir məqam dəqiqdir ki, qardaş ölkədən yeni PUA-ların alınması Azərbaycana hərbi müstəvidə əlavə üstünlüklər qazandıracaq. Elə düşməni də lərzəyə salan budur.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**